# Qəbələdə Dövlət Bayrağı Günü qeyd edildi

Təntənəli tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, icra hakimiyyəti aparatının işçiləri, idarə, müəssisə rəhbərləri iştirak edirdilər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzi parkında ucaldılmış abidəsi önünə tər qızıl gül dəstələri düzmüş və əziz xatirəsini yad etmişlər.

Bayram tədbiri Qəbələ Mədəniyyət mərkəzində davam etdirilmişdir. Aparıcılar iştirakçıları salamladılar və qeyd etdilər ki, üçrəngli bayrağımız 70 il yasaq edilmiş, 1990-cı ildə ulu öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində yenidən dövlət bayrağı kimi qəbul olunmuşdur. Bu bayraq Azərbaycan xalqının vicdan və qeyrət, namus rəmzinə çevrilmişdir. Xalqımız bu bayraq altında daha sıx birləşir, onu daha uca zirvələrə qaldırır, müqəddəslik, şərəf və vicdan rəmzi hesab edir. Aparıcılar hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal olunmuş Qarabağ torpaqlarında yenidən Dövlət Bayrağımızın dalğalanacağını, haqq-ədalətin zəfər çalacağını bildirdilər. İştirakçıları Dövlət Bayrağı Günü münasibətilə təbrik etdilər.






Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayevin 9 noyabr Dövlət Bayrağı Günü münasibətilə rayon əhalisinə ünvanladığı təbriki başçının müavini Ətayə Osmanova tədbir iştirakçılarına çatdırdı.

Mədəniyyət Mərkəzinin hazırladığı rəngarəng konsert proqramı iştirakçılara xoş ovqat bəxş etdi. Xüsusilə səslənən mahnılar və muğamlar, milli rəqslər alqışlarla qarşılandı.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**





# Səsìm–mənì həyata bağlayan nəfəsìm

Mən uşaqlığı azadlıq hərəkatı, Qarabağ müharibəsi, gəncliyi təlatümlər, çaxnaşmalar, çevrilişlərlə keçmiş bir Azərbaycan vətəndaşıyam: milyonlardan biri. Biz uşaqkən böyüklərimiz azadlıq hərəkatına qoşuldu, könüllü müharibəyə getdi. Şəhidlərimiz də oldu, əlillərimiz də. Ancaq geri çəkilmədik. Qəlbimizi elə bir azadlıq alovu, ruhumuzu elə bir vətən sevgisi sarmışdı ki, gözüyumulu tank altına, tüfəng qabağına getdik.

Kiçikdik, əlimiz heç yerə çatmırdı. 12 nəfər məktəblidən ibarət bir təşkilat yaratdıq. Mis, alüminium, itburnu, yemişən toplayıb satdıq, qazancımızı cəbhəyə göndərdik. Çox sevincli idik. Elə bilirdik ki, hər birimiz bir qoşuna qalib gələrik. Sonra gəncliyimiz: çevrilişlər, təlatümlər, çaxnaşmalar. Külək bizi xəzan yarpağı kimi ordan-ora sovurdu. Tutacaq bir budaq, sığınacaq bir dayaq tapmadıq. Nə qazandıq? Bizdən geriyə nə qaldı? O vətən eşqi ilə alışıb-yanan qəlbimizin yerinə ortasında Qarabağ boyda yarası olan ürəklərimiz, sanki tank tırtılları altından çıxmış gəncliyimiz. Arzularımız heç, ümidlərimiz puç oldu.

Belə bir vaxtda xalq son ümid yeri kimi üzünü xalqımızın böyük oğlu Heydər Əliyevə çevirdi. Vətənin ağır günündə Heydər Əliyev vətənin, xalqın imdadına yetişdi. Fırtınalı okeanda tək və köməksiz qalmış gəmiyə dönmüş Azərbaycanı çox böyük məharətlə sabitliyə və sürətli inkişafa qovuşdurdu. 2003-cü ildə ümummilli liderimiz canından çox sevdiyi Azərbaycanı özü kimi inandığı İlham Əliyevə və onu da müdrik xalqına tapşıraraq haqqın dərgahına qovuşdu.

İndi o dövrdən 20 il keçir. Geriyə baxanda nə görürük: təkcə yeni salınmış yollarmı, açılmış məktəblərmi, xəstəxanalar, hava limanları, fabrik və zavodlarmı, körpülər, otellərmi? Xeyr, həm də biz gələcəyə olan böyük ümid, sabaha olan böyük inam görürük. O ümid ki, insanı yaşadan ən böyük qüvvədir. O inam ki, bizi yaşamağa, yaratmağa sövq edir. Arxamızda gözləri inamla parlayan, ürəyi mübarizə eşqi ilə alışıb-yanan bir gənclik var.

Arximed deyirdi: «Mənə bir istinad nöqtəsi verin, Yer Kürəsini yerindən oynadım». Müasir Azərbaycan gəncliyinin dayağı, istinad etdiyi, güvəndiyi yer möhtərəm Prezidentimiz İlham Əliyevdir. Ona görə də biz gənclər 9 oktyabr—prezident seçkilərində səsimizi möhtərəm cənab İlham Əliyevə verdik.

«Mən fəxr edirəm ki, azərbaycanlıyam»—deyən Heydər Əliyevin təbirincə desək, biz arxamızda fəxr ediləsi bir Azərbaycan qoyduq, onu gələcəyə daşımaq siz gənclərin əlindədir. Biz gənclər möhtərəm cənab İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycanımızı daha da inkişaf etmiş, qüvvətlənmiş şəkildə gələcəyə aparacağıq.

9 oktyabrda biz səsimizi möhtərəm cənab İlham Əliyevə verərək seçimimizi etdik. Doğru seçim etdiyimizi sübut etmək də bizim əlimizdədir.

**Mədinə QASIMOVA,**
**Vəndam qəsəbə 1 saylı tam orta məktəbin müəllimi.**